**Ədəbiyyat qəzeti** **32**

20 noyabr / 2021




# *Kənan Hacının "Hacı İsgəndər"i təqdim olundu*

"Kənan Hacı çağdaş ədəbi həyatımızda imzası ilk yada düşən yazıçılarımızdandır. Biz onun yaradıcılığında daha çox yaşadığı mühitin, doğma Buzovnanın parlaq peyzajını görürük. Onun əsərlərində təkcə baş qəhrəmanın yox, həm də əsərdə təqdim olunan bütün obrazların yaddaqalan şəklini, həyata baxışlarını seyr edirik. Bu deyilənlər yazıçının "Hacı İsgəndər" romanına da xas olan cəhətlərdir. Romanda sovet ideologiyasının fəsadları yaddaqalan cizgilərlə təqdim olunub. Həmin dönəmdə Hacı İsgəndər kimi tarixi şəxsiyyətlər adətən mənfi planda verilirdi. Şükür ki, artıq o basqı, ideoloji senzura yoxdur. Müəllif Hacı İsgəndər obrazı ilə öz xalqına, vətəninə dərin duyğularla bağlı olan imkanlı, sözü keçərli, nüfuz sahibi olan bir hacının parlaq, yaddaqalan obrazını yarada bilib".

Bu fikirləri Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi tanınmış yazıçı Kənan Hacının yenicə çapdan çıxmış "Hacı İsgəndər" kitabının Natəvan klubunda keçirilən təqdimat mərasimində səsləndirdi.

Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli romanı tarixə hörmət faktı kimi dəyərləndirdi. Sonra Hacı Sultan ötən əsrin əvvəllərində Buzovnada yaşamış, əhali arasında böyük nüfuz sahibi olan, Nuru Paşanın yüksək dəyərləndirib ödül verdiyi Hacı İsgəndərin həyatı barədə ətraflı danışdı, onun taleyi ilə bağlı davamlı araşdırmalar apardığını və bu barədə Hacı zaminə etibarlı bilgi verdiyini dilə gətirdi.

Şair və yazıçılardan Vaqif Osmanlı, Sərvaz Hüseynoğlu, Narıngül Nadir, Rafiq Akif, Xəzər Məsimov, Mirhəsən, Şəhla, Kəmalə, Elza və başqaları təqdim edilən romanın məziyyətlərindən bəhs etdilər. Yazıçı Akif Cabbarlı bildirdi ki, Kənan öz obrazları ilə dostluq edə bilir, onlarda yaşayır.

Yazıçı Rəfael Tağızadə K.Hacının məhsuldar söz adamı olduğunu təqdir etdi: "Kənan maraqla oxunur. Yormur. Dili rəvandır. Bakı kəndlərinin özəlliyini göz yaddaşına köçürərək dərin səmimiyyət və yaddaqalan boyalarla əsərlərinə həkk edir.

Sonda Kənan Hacı tədbirin təşkilatçılarına, AYB rəhbərliyinə və yeni romanı barədə maraqlı fikirlər səsləndirən qələm dostlarına minnətdarlığını bildirdi, yaradıcılıq planlarından söz açdı.

*Aynur Hilali*